*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 15-32* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.2.15*

# Bəxtiyar Vahabzadə poeziyasında insan konsepti

**Əlizadə Əsgərli**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: alizade.asgerli@gmail.com

**Annotasiya.** İdealı böyüklük, arzusu təmizlik, məqsədi yüksəklik və eşqi gözəllik olan Xalq şairi Bəxtiyar Vahabzadənin müdrik-fəlsəfi poeziyası, əsasən, dörd konsept üzərində qurulmuşdur: ideal, arzu, məqsəd və gözəllik!
Bəxtiyar Vahabzadə poeziyası insanın qəlb və əql aləmi, onun psixoloji-mənəvi və fəlsəfi-əxlaqi təbiəti ilə möhkəm bağlıdır. Şair folklor, xalq-aşıq şeiri, klassik və dünya poeziyanın bədii ənənələrindən istifadə edərək XX əsr Azərbaycan poeziyasının nadir nümunələrini yaratmış və novator sənətkar kimi tanınmışdır.
Bəxtiyar Vahabzadə poeziyası hissi idrakla məntiqi idrakın poeziyasıdır. Onun poetik idrakının bütün vüsətini duyğu, qavrayış və təsəvvür, habelə, anlayış, mühakimə və əqli nəticə, – bunları bir-birinə bağlayan fəal yaradıcı təxəyyül təmin etmişdir. Bəxtiyar Vahabzadə milli poeziyamıza intellektual bədii üslub gətirmişdir. Onun poeziyası həyat, cəmiyyət və dünyanın dialektik qanunları, əksliklərin vəhdəti və mübarizəsi, inkarı inkar, kəmiyyət və keyfiyyət dəyişmələrinin əsrarəngiz poetik halları, habelə məntiqin: eyniyyət, ziddiyyət, üçüncünü istisna və kafi əsas qanunauyğunluqları ilə qidalanmış, bədii təzadların poeziyası kimi fərdilik qazanmışdır.
Bəxtiyar Vahabzadə lirik "Mən"ində daha çox ifadə olunan, torpaq, vətən və millət dərdindən daha çox yazan şairimizdir. Ana və ana dili mövzusu Bəxtiyar Vahabzadə yaradıcılığında əhəmiyyətli yer tutur. Şair psixologizminin min bir poetik halı ruh, qəlb və idrak aləmimizi ehtizaza gətirmişdir. Bəxtiyar Vahabzadə fəlsəfəsinin əsasında dünya və insan problemi dayanmış, onun zəngin poeziyasında insan obrazı mühüm yer tutmuşdur. Bəxtiyar Vahabzadə poeziyasının bədii fəlsəfəsi onun hissi və məntiqi idrakından doğulmuşdur. Sənətkar poetik fəlsəfəsində subyektiv materialist olmuşdur. Bəxtiyar Vahabzadə xəlqi, milli və bəşəri sənətkardır.
**Açar sözlər:** Bəxtiyar Vahabzadə, konsept, bədii təzad, bədii fəlsəfə, psixologizm

**Məqalə tarixçəsi:** göndərilib – 27.11.2025; qəbul edilib – 12.12.2025

# The Human Concept in the Poetry of Bakhtiyar Vahabzade

**Alizade Asgerli**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: alizade.asgerli@gmail.com

**Abstract.** The wise and philosophical poetry of the national poet Bakhtiyar Vahabzade, whose ideal is greatness, whose desire is purity, whose goal is sublimity, and whose love is beauty, is mainly built on four concepts: ideal, desire, goal and beauty!
The poetry of Bakhtiyar Vahabzade is closely connected with the world of the heart and mind of man, his psychological-spiritual and philosophical-moral nature. The poet created rare examples of Azerbaijani poetry

of the 20th century, relying on the artistic traditions of folklore, folk-ashug poetry, classical and world poetry, and was recognized as an innovative artist.
The poetry of Bakhtiyar Vahabzade is the poetry of emotional understanding and logical understanding. The entire scope of his poetic understanding was provided by active creative imagination, connecting emotions, perception and imagination, as well as understanding, judgment and rational conclusion. Bakhtiyar Vahabzade brought an intellectual artistic style to our national poetry. His poetry is nourished by the dialectical laws of life, society and the world, the unity and struggle of opposites, the mysterious poetic states of negation by negation, quantitative and qualitative changes, as well as the basic laws of logic: identity, contradiction, exclusion of the middle, sufficient, and acquired individuality as poetry of artistic contrasts.
Bakhtiyar Vahabzade is our poet who most often expresses his lyrical "I" and who most often writes about the pain of the land, homeland and people. The theme of native language and mother occupies an important place in the work of Bakhtiyar Vahabzade. The poetic state of the poet's psychologism brought to the forefront our world of soul, heart and intellect. The philosophy of Bakhtiyar Vahabzade was based on the problem of the world and man, and the image of man occupied an important place in his rich poetry. The artistic philosophy of Bakhtiyar Vahabzade's poetry was born from his emotional and logical understanding. The artist was a subjective materialist in his poetic philosophy. Bakhtiyar Vahabzade is a people's, national and humanitarian artist.
**Keywords:** Bakhtiyar Vahabzadeh, the concept, artistic contrast, artistic philosophy, psychologism

**Article history:** received – 27.11.2025; accepted − 12.12.2025

## Giriş / *Introduction*

Xalq şairi Bəxtiyar Vahabzadə idealı böyüklük, arzusu təmizlik, məqsədi yüksəklik, eşqi gözəllik olan görkəmli şair, dramaturq, tərcüməçi, ədəbiyyatşünas-alim, publisist və ictimai xadimdir.

Sənətkarın müdrik poeziyası, əsasən, dörd konsept üzərində qurulmuşdur: ideal, arzu, məqsəd və gözəllik!

*İdeal* – Azərbaycanın yaxın məqsəd kimi dövlət müstəqilliyi, vahid türk dünyasının uzaq məqsəd kimi Turan birliyidir. Bu ideyada B.Vahabzadə azərbaycançı, türkçü, turançı şairimizdir!

*Arzu* – B.Vahabzadə poeziyasının təmizliyidir! Arzu və romantikada məqsəd vardır. B.Vahabzadə poeziyasının məqsədi yüksəklikdir!

İdeal, arzu və məqsəd gözəllikdir. B.Vahabzadə poeziyasının gözəlliyi eşqdir!

## Əsas hissə / *Main Part*

Bəxtiyar Vahabzadə poeziyası insanın qəlb və əql aləmi, mənəvi-psixoloji və fəlsəfi-əxlaqi təbiəti ilə möhkəm bağlıdır. Bu poeziya bütün ruhunu folklor, klassik ədəbiyyat və bəşər bədii təfəkkürünün qaynaqlarından götürmüşdür.

Bəxtiyar Vahabzadə poeziyası hissi idrakla məntiqi idrakın poeziyasıdır! Şair poetik idrakının bütün vüsətini duyğu, qavrayış və təsəvvürlə qidalandırmışdır. Onun bədii fikir və düşüncə fəlsəfəsi kifayət qədər intellektualdır. Bu baxımdan Bəxtiyar Vahabzadə poeziyasının anlayış, mühakimə və əqli nəticə deyilən hüdudsuz imkanları vardır. Bəxtiyar Vahabzadə poeziyamıza intellektual yaradıcılıq üslubu gətirmişdir. Onun poeziyası həyat, cəmiyyət və dünyanın dialektik qanunları, əksliklərin vəhdəti və mübarizəsi, inkarı inkar, kəmiyyət və keyfiyyət dəyişmələrinin əsrarəngiz poetik halları, habelə, məntiqin: eyniyyət, ziddiyyət, üçüncünü istisna və kafi əsas qanunauyğunluqları ilə qidalanmış, bədii təzadların poeziyası kimi fərdilik qazanmışdır.

Bəxtiyar Vahabzadə əsrarlı duyğularını, həyəcanlarını yanğı bağlayaraq ifadə etmişdir. Sənət məramına çatmaq təşnəsi ilə poetik axtarışlar aparmış və hər dəfə nail olduğu yerdən – hər uğurlu

poetik mətndən yeni nəfəs, yeni sürət götürmüşdür. Bu mənada Bəxtiyar Vahabzadə poeziyası dinclik bilməyən, daim yürüşdə olan, ehtiraslı və əzəmətli poeziyadır! Vaxt, Zaman və Sürət onun üçün ülgü, dəyər və ölçüdür. Vaxt, Zaman və Sürət Bəxtiyar Vahabzadə poeziyasının məhək daşıdır. Şair özünü həmişə Vaxtın və Zamanın sürətində görmüşdür. İnsan bu zamanın fəlsəfəsində gözəllik və əqidə mücəssəmidir!

*Gözəllik önündə heç olarmı ki*
*Arzu da, ürək də genişlənməsin?!*
*Deyirəm elə bir ürək varmı ki*
*Gözəllik önündə coşub dinməsin!*

*Xoşdur gözəl görüb bütün elliyi*
*Çalışmaq, yaşamaq, sevmək, sevilmək!*
*Xoşdur xilqətdəki hər gözəlliyi*
*Ürəkdən duyaraq anlaya bilmək!* [1, s.216]

*("Dağ çiçəkləri")*

Şairin poeziyasının zəngin *təsvir və təhkiyəsi* daha çox birinci və ikinci şəxslə bağlıdır. Bu birinci və ikinci şəxs isə bütün səviyyələrdə fərdi yox, sosial-fəlsəfi, siyasi-ideoloji, mənəvi-əxlaqi və etik-estetik müəyyənlikdədir. Bununla belə, Bəxtiyar Vahabzadənin ecazlı *lirik "mən"inin özünə* və bütün şəxslərə aid olan müraciət və münasibət mətninin əsrarlı poetik rəngləri, zənginlikləri vardır. Şair özünü nə qədər fərdi üslubda ifadə etmək istəmişdirsə, bir o qədər zəmanəsi, torpağı, dövləti və milləti, Şərqi və Qərbi, bir sözlə, dünyanın – Zaman və İnsan münasibətlərinin sirli aləmi ilə möhkəm bağlı olmuşdur.

Bəxtiyar Vahabzadə folklor, xalq-aşıq şeiri və klassik poeziyanın bədii qaynaqlarından, ənənəvi janrların hüdudsuz imkanlarından istifadə edərək XX əsr Azərbaycan poeziyasının nadir nümunələrini yaratmış, novator sənətkar kimi tanınmışdır. Bəxtiyar Vahabzadə poetik sözün ruhunu göylərə uçuran və oxucu qəlbini ardınca çağıran gözəllik şairidir.

Bəxtiyar Vahabzadə şeirlərinin başlanğıcı, davamı və sonu – təkamül yolu vardır. Bütün hallarda təzad bu əsərlərin qida mənbəyi, inkişaf dialektikasıdır. Şairin bütün şeirlərində alt qat, mahiyyət olmuşdur ki, ədəbi-tənqid bunu *"ikinci səs"* adlandırmışdır [2, s.50].

Bəxtiyar Vahabzadə 1940-cı illərdə ədəbiyyata gəlmiş ("Ana və şəkil", "Ədəbiyyat qəzeti", 25 may 1943), 1949-cu ildə ilk şeir toplusunu çap etdirmişdir ("Mənim dostlarım", Bakı, Azərnəşr, 1949). Kitabda Bəxtiyar Vahabzadənin lirik düşüncələri ilə predmetin təsviri, təfərrüat və müşahidənin birliyi 1940-cı illərin şeirləri üçün səciyyəvi olmuşdur: "Böyük insan", "Mənim dostlarım", "Yaşıl çəmən", "Sabahınız xeyir olsun", "Ağ saçlar", "Təzə şəhər", "Məktəb şeirləri" və s. [2, s.33]

Şair 1950-ci ildə "Bahar", "Dostluq nəğməsi" (1953), "Əbədi heykəl" (1954), "Çinar" (1956), "Ceyran" (1957), "Aylı gecələr" (1958) kitablarında da eyni poetik axtarışlarını davam etdirmişdir.

Bəxtiyar Vahabzadə məhəbbət şeirlərini 1950-ci illərdən yazmağa başlamışdır. Sənətkar məhəbbət şeirlərində də haldan-hala düşmüş, bəzən sərt, bəzən mülayim, bəzən məmnun, bəzən inkarçı, bəzən müdrik, bəzən adi, bəzən filosof, bəzən sadəlövh olmuşdur ("Yağma, yağış", "Gülüş", "İlk məhəbbət", "Gəlir", "Ceyran", "Günəşdən gen düşəndə", "İtirilmiş məhəbbət", "Heyranın olsun", "Bir mənəm, bir də sükut", "Səni görəndə", "Səndə qəlb olsaydı", "Şeirimin ahəngi", "Gecikmiş məhəbbət", "Sənin surətin" və s.). Bəxtiyar Vahabzadənin məhəbbət şeirləri kifayət qədər fikir və düşüncə, fəlsəfə və əxlaq şeirləridir. Bu məhəbbətin ifadəsi təbiətlə, insan mənəviyyatı, fəlsəfəsi və əxlaqi ilə birlikdədir.

Bəxtiyar Vahabzadə məhəbbət şeirlərini 1980-ci illərə qədər davam etdirmiş, lakin 1990-cı illərdə bu mövzuya demək olar ki, müraciət etməmiş, onu, əsasən, milli-bəşəri və ideoloji-siyasi mövzular maraqlandırmışdır.

Şairin "Dodaqda gəz" (1964), "Gözəllik bəxşişdir" (1964), "Sən getdin" (1967), 1970-ci illərdə "Sənsiz bu yerlər" (1973), "Unut görüm" (1974), "Qüruru neyləyirsən" (1974), "Sevdim səni" (1974), "Bildim ki" (1974), "Maral" (1976), "Sən hardan biləsən" (1978), "Çiçəklərin baxışında" (1979), 1980-ci illərdə "Qəzəl" (1980), "Mənə iztirab ver" (1981), "Sən mənim" (1981), "Həqiqəti yaşadan" (1985), "Sənə çatmaq üçün qalxdım göylərə" (1985), "Həsrətin hökm etdi gözündən əvvəl" (1986) və başqa seçmə nümunələrində fərdi məhəbbət duyğuları ifadə edilmişdir.

Bəxtiyar Vahabzadə poeziyasında canlı harmoniya olan insan və cəmiyyət birliyinin önəmi doğma təbiətdir. Sənətkarın təbiət şeirlərinin öz ahəngi, öz ritmi, obrazlar və rənglər aləmi vardır. Təbiət sənətkar təfəkkürünün düşüncə, fikir və mәna məkanıdır. Fəqət "Bəxtiyar poeziyasında "saf" halda təbiət təsviri, demək olar ki, yoxdur. Azərbaycan burada heç yerdə xalis "peyzaj" şəklində deyildir. Hətta vətən də şair üçün hər şeydən əvvəl Zamanı təmsil edən surət və simvol – ədəbi-əxlaqi yaddaş və mənəvi-tarixi bir vicdandır" [3, s.4].

Bəxtiyar Vahabzadənin təbiət şeirlərində dialektikanın bədii təzahürü güclüdür. Sənətkar dörd fəslin insan duyğularını ehtizaza gətirən əsrarlı hallarına tərcüman olmuş, daha çox insanın hüdudsuz lirik-psixoloji və mənəvi aləmini üzə çıxarmaq istəyində qalmışdır. Təbiət Bəxtiyar Vahabzadə üçün qüdrət, ruhun və cismin qidalandığı, cilalandığı məkandır. Onun bədii obrazları, əsasən, dağ, qaya, çinar və ağacdır.

"Sənsiz də yaşadar bu dağlar məni" /1950/, "İlk cığır" /1950/, "Bizim yurdun" /1950/, "Yay" /1950/, "Çinar" /1956/, "Qövsi-qüzeh" /1956/, "Ceyran" /1957/, "Göygöl" /1957/, "Qaranquş və sərçə" /1958/, "Ey ana təbiət" /1958/ və başqaları 1950-ci illərin bədii məhsulu olub, Bəxtiyar Vahabzadənin konkret predmetlərə yazdığı şeirlərindəndir.

Bəxtiyar Vahabzadə poetik gözlənilməzliklərin şairidir! Onun təbiətdən cəmiyyətə, lirikadan sosial-siyasi mövzu və motivlərə keçidlərinin həmişə bir "bağ"ı, bir ilgəyi olur ki, bu da təbiət olaylarıdır.

Bəxtiyar Vahabzadənin 1960-ci illərdə "Durnalar" /1960/, "Bahar və mən" /1961/, "Qağayılar" /1961/, "Dağda şəlalə kimi" /1961/, "Səkilər" /1961/, "Payız" /1963/, "Təyyarədən yerə baxanda /1963/, "Ucalıq" /1964/, "Palıd" /1964/, "Payız lövhələri" /1964/, "Dan yeri ağarır" (1965), "Bir ürəkdə dörd fəsil" /1966/, "Novruz qarı" /1966/ kimi şeirlərində təbiət lirik "mən"ə tabe halındadır, əsasən, onun doğurduğu emosiya və ehtizazları üzə çıxarır:

*Çıxdım dağ başına bir səhər çağı,*
*Ayağım altında daşlar da dindi.*
*Mənə göz elədi hər gül yarpağı,*
*Ürək təzələndi, can təzələndi.* [4, s.17]

*("Dan yeri ağarır")*

Bəxtiyar Vahabzadə şeirlərində, adətən, obyekt (predmet) və müşahidədən, həyat təcrübəsindən çıxış etmişdir, başlanğıc, mənəvi təkan xəyal və təxəyyül qidasını, qaynağını buradan almışdır. Yəni əvvəl real obyekt, sonra romantik, subyektiv düşüncə birliyi gəlmişir. Fəqət Bəxtiyar Vahabzadə poetik təfəkküründə obyektlə subyektin birliyi olan empirik sənətkardır!

...Bəxtiyar Vahabzadə 1980-1990-cı illərdə də təbiət şeirləri yazmışdır. "Bahar həsrəti" /1980/, "Bahar, ay bahar" /1980/, "Qara saçlar, ağ saçlar" /1980/, "Torpaq" /1980/, "Vətən torpağı" /1980/, "Buludlar-xatirələr" /1982/, "Səhər" /1982/, "Dağ nə qədər uca olsa" /1984/, "Qarabağ atı" /1985/, "Payızda" /1985/, "Dağlar kölgəsində" /1985/, "Yaylaqda" /1986/, "Yazda qışı gözləyirik" /1986/, "Sərçələr" /1988/, "Həyat, sən nə şirinsən" /1989/, "Novruz bayramı" /1989/, "Yay" /1989/, "Axı dünya fırlanır" /1990/, "Körpü çaydan uzaq düşüb" /1993/, "Oxuma, bülbül" /1994/, "Novruz gəlir" /1996/, "Qapılar" /1998/ kimi poetik nümunələrdə Bəxtiyar Vahabzadə epik başlanğıcdan, predmetli müşahidədən çıxış edərək lirik-psixoloji, etik-estetik və əxlaqi-fəlsəfi duyğu və düşüncə-

lərinə uçuş vermiş, təbiətlə insan ruhunun təmasını qurmuş, onun ehtizazlı, əsrarlı hallarına reallıq aşılamışdır.

Bəxtiyar Vahabzadə ana dili, millilik, milli ideya, milli birlik, bütöv Azərbaycan və istiqlal mövzuları, onların ifadə olunduğu "Gülüstan", "Köklər, budaqlar" kitablarına görə incidilmiş, hətta dissident olmaq həddinə gəlmişdir. Fəqət yolundan dönməmişdir. Şairi həbs etmək istəmişlər. Xilaskarı Ulu öndər Heydər Əliyev olmuşdur. Bəxtiyar Vahabzadə Azərbaycanın ictimai-siyasi və mədəniyyət həyatında fəal iştirak etmiş, qiymətli əsərlər yaratmışdır.

Sənətkarın fəal təsvir obyektlərindən biri Cənubi Azərbaycan, bütöv Vətən məfkurəsi olmuşdur. Şair bu mövzunu 1950-ci illərdən başlamış və yaradıcılığının bütün mərhələlərində davam etdirmişdir.

Akademik M.C.Cəfərov yazmışdır: "Şair Yaxın Şərqdə ilk olaraq milli azadlıq, istiqlaliyyət uğrunda müstəmləkə zülmünə qarşı mübarizəyə qalxan və yarım əsrdən artıqdır ki, bu yolda sayasana sığmayan qurbanlar verən cənublu qardaş-bacılarının taleyi haqqında düşündüyü zaman o, niskilli olduğu qədər, eyni böyük amal uğrunda mübarizə aparan xalqların taleyi haqqında da qayğılanır. Bu qayğı da onun mənsub olduğu xalqın qayğısıdır, xalq humanizmi, beynəlmiləlçiliyinin ifadəsidir" [5].

Bəxtiyar Vahabzadənin Cənub mövzularının ("Sökün çəpərləri" /1965/, "Məktublar" /1965/, "Şəhriyara" /1965/, "Şair-vətən" /1967/, "Həsrət" (Ustad Şəhriyara) /1980/, "Ustad Şəhriyarın S.Rüstəmə göndərdiyi məktubuna cavab" /1980/, "Sahirə cavab" /1990/, "Həsrət" (Bəxtiyardan Şəhriyara) /1992/, "Şəhriyara" /2010/, "Səhəndə məktub" /1968/) konkret qaynaqları vardır. Bunlardan biri Cənubdakı zəhmət adamlarının obrazlarıdır. Şair "Cənublu bacıma" (1951) şeirində Güney Azərbaycanın zəhmətkeş təbəqəsinin hüquqsuzluğunu göstərmiş, onların arzularını ifadə etmişdir. Şeir lirik "mən"in lirik "sən"ə xitabı üzərində qurulmuşdur. Bu cənublu bacımız hanaçıdır, xalı toxuyur:

*Arzum budur öpsün alnını bahar*
*Arzuların kimi gülsün vətənin.*
*Özün toxuduğun ipək parçalar*
*Gəlin otağına salınsın sənin.* [6, s.23]

*("Cənublu bacıma")*

Cənub mövzusunun başqa bir insanı adi oxuculardır ki, Bəxtiyar Vahabzadə, hətta onlardan mövzu və motiv alıb şeirlər yazmışdır. Sənətkar "Dilimiz – ədəbiyyatımız" (1982) məqaləsində yazmışdır: "Mən Bakı radiosunun Cənubi azərbaycanlı dinləyicilərindən bir neçəsinin məktubu ilə tanış oldum. Məktubların hamısı böyük məhəbbət və ürək döyüntüsü ilə yazılmışdır. Məktub müəllifləri bizim ölkə ilə, onun təhsil sistemi və həyat tərzi ilə maraqlandıqlarını yazır və bu məsələlərə dair maraqlı suallar verirlər" [7].

Sənətkarın poeziyasının bir bəlgəsi Şəhriyar, Səhənd, Sönməz kimi şöhrətli sənətkarların adı ilə bağlıdır. "Səhəndə məktub" (1968) şeirində vətən, ayrılıq fəlsəfəsinin ağrıları xatırlatma motivində ifadə edilmişdir:

*Deyirsən yarıya bölünənlərin*
*Dərdini dünyada bir bilməyən yox.*
*Biz də bölünmüşük, ancaq bu dərdi*
*Uca kürsülərdən heç bir deyən yox.*
*Mən dizimə döyüb zar-zar ağladım,*
*Çöllər göz yaşımdan gölmə-gölmədir.*
*Qranit dağları dələn fəryadım*
*Tək Araz çayını aşa bilmədi.* [8, s.73]

*("Səhəndə məktub")*

Bəxtiyar Vahabzadənin insanı Cənub mövzusunu şəxsiyyətlərlə (Şəhriyar, Səhənd, Sönməz və s.), vətənlə (tarixi, coğrafi, etnoqrafik), dillə (Türk-Azərbaycan), torpaqla (Bütöv Azərbaycan) bağlamışdır. Ümumiyyətlə, şair hər şeyi bütöv görmək istədiyi kimi, Azərbaycanı da bütövlük gerçəkliyində təcəssüm etdirmişdir. Professor Y.Qarayev ümumiləşdirmişdir ki, "Bəxtiyar Vahabzadə üçün ayrıca bir "tarixilik "anlayışı yoxdur; ayrıca bir ənənəvi "milli xarakter", ayrıca bir müasir "intellektual qəhrəman" yoxdur. Onun üçün yalnız, eyni, vahid, yekparə varlıq – müqəddəs, əbədi Azərbaycan vardır. Azərbaycan burada məhz tarix və proses kimi, həm mənşə, həm də gələcək kimi, beşik, ocaq, yuva və ana kimi tərənnüm olunur" [3, s.4].

Bəxtiyar Vahabzadənin insanı vahid Azərbaycanı səs-söz, ifadə, motiv, təsvir-təhkiyə qalıbından tutmuş, torpaq, vətən, dünya genişliyinə qədər ifadə etmişdir. Sənətkarın soykökü, od-ocağı, gen yaddaşı, "Ata yurdu"ndan (1974) başlamışdır. Yurd onun üçün həm uşaqlıq, həm də ona yetməyin həsrət qoynudur:

*Çıxdı ahıllığım o evdən çölə,*
*Amma uşaqlığım yuxarı başda.*
*İndi mən həsrətəm ata yurduma,*
*Odu ürəkdədir, buxarı başda.* [3, s.136]

*("Ata yurdu")*

1957-1960-cı illərdə erməni məkri baş qaldıranda, Naxçıvana, Qarabağa mənfur əllər uzanmaq istəyəndə, Bəxtiyar Vahabzadə "Torpaqdan pay olmaz" (1962) şeirini yazmışdır. Bədxah qonşunu ittiham etmişdir:

*İsa bulağının zümzüməsini,*
*Cabbarın, Seyidin, Xanın səsini,*
*Dalğalı Qarabağ şikəstəsini,*
*Babək türbəsini necə pay verim?* [9, s.37]

*("Torpaqdan pay olmaz")*

Bəxtiyar Vahabzadə torpaq, vətən və millət dərdindən daha çox yazan şairimizdir. O, yaradıcılığında sosial-siyasi mövzulara geniş yer vermişdir. Şairin "Sərhəd ağacları" (1955), "Haqq, zorakılıq" (1985), "Xalq deputatına açıq məktub" (1989), "Haqqa haqsız dedilər", "Hörmət – rüşvət", "Şam", "İman təməli" (1991), "Həm oğul, həm ata" (1992), "Cəllad Yazov" (1991), "Yenilənmiş ittifaq" (1992), "İkibaşlı qartal" (1995) və başqa əsərlərində torpaq, vətən və millət mövzusunun əlvan bədii ifadəsini görürük.

"Sərhəd ağacları" (1955) mühakiməli şeirdir. Şair "Sərhəd ağacları"nı danışdırır. Psixoloji-mənəvi və məntiqi mühakimələr mətn boyu şeiri müşayiət edir. Mənalandırma və dəyərləndirmə bədii mətnin cövhəridir. Şeir iqrari hökmlə sona yetir:

*Bir çəpər oldunuz əsrlərlə siz*
*Önündə hər eşqin, hər xoş niyyətin.*
*Sizin alovunuz qurudar ancaq*
*Gözünün yaşını bəşəriyyətin.* [10, s.26]

*("Sərhəd ağacları")*

Bəxtiyar Vahabzadə səfərlərdə olduğu xarici ölkələrin sosial-siyasi və mədəniyyət həyatına aid şeirlər yazmışdır. Beynəlxalq mövzulu şeirlər onun bədii yaradıcılığında mühüm yer tutur.

Bəxtiyar Vahabzadənin "Latın dili" (1971), "Pompey xərabələri önündə", "Tabut gedir" (1972), "İki yol" (1972), "Helmuta" (1973), "Portuqaliya lövhələri" (1975), "Daşda şeir", "Dəniz", "Kişi qəbiristanı", "Topqapı sarayı" (1977), "Qapalı çarşı" (1977), "Hayd-Park" (1978), "Kaman

nalə çəkir” (1978), “Olum, ya ölüm”, “Çörək-səadət” (1984), “Çörək-Vətən” (1984), “Maqbet”, “Otello”, “Sovxa medallar” (1978), “Kaman nalə çəkir” (1984) və s. şeirləri 1970-1980-ci illərə aiddir. Bunlar onun Almaniya, Türkiyə, Portuqaliya, İngiltərə səfərlərinin nəticəsidir. Bəxtiyar Vahabzadənin bir sıra şeirləri Şərq və Qərb ölkələrinə səfər təəssüratlarının nəticəsi (1961) olub (“Ələddinin çırağı”, “Özünə yalvarsana”, “Ehramların önündə”, “Dəclə sahilində”, “Təsbih”, “Taqi-Kəsra önündə”, “Baba gur-gur”, “Rəfaelin qəbri üstündə”, “Mumiya”, “İstiqlal”, “Mikel Ancello-nun kədəri önündə”, “İstanbul”, “Açıq şəhər” və s.) epik təsvirdən çox, lirik-psixoloji və əxlaqi-mənəvi keyfiyyətləri ifadə edir. Şairin xarici ölkələrə səfərləri demək olar ki, ölkələrarası mədəniyyət ongünlüklərinin keçirilməsi ilə bağlı olmuşdur. Sənətkarın 1960-cı illərdə meydana gəlmiş “Gözlərim”, “Atılmayan toplar”, “Günahsız müqəssirlər”, “Bir üzdə iki dünya”, “Fəryad”, “Ağlayan pəri”, “Panteonda”, “Mən narazıyam” (1965), “Neo” və sair şeirləri bu cür meydana gəlmişdir.

1970-ci illərin səyahət şeirlərində də epik material şairin lirik duyğular aləminə tabe tutulmuş, milli ideyaların, bütöv Azərbaycan ideyasının ifadəsi həmin şeirlərin cövhərində dayanmışdır. Şair 1970-ci illərdə “Miz arxasında”, “Sərhəd ağacları”, “Tərki-silah”, “Dan yeri”, “Kölgələr”, “Şairi öldürürlər”, “Qurbanlıq quzu” (1978), “Neytron bombası” (1977) “Dərdə bax”, “Dünyanın sərhəddi”, “Portuqaliya lövhələri” (“Daşda şeir”, “Dəniz-kişi qəbristanı”, “Qrandola Vil Morena”) və sair şeirlərini yazmışdır. Mühakiməli mətn üzərində qurulmuş “Misir”, “Ehramların önündə” şeirlərində xəyanət, satqınlıq hissi tənqid olunmuşdur:

*Vətəni satdılar, eli satdılar.*
*Bilmədi satılıb nə zaman Misir.*
*Sinəsi üstündə at oynatdılar*
*Yenə ayılmadı yuxudan Misir.* [11, s.29]

*(“Misir”)*

B.Vahabzadə milli-bəşəri, dünyəvi (beynəlxalq) mövzuda poemalar: “Yollar və oğullar” (1962-1963), “Uçun, nəğmələrim” (1966), “Təzadlar” (1966-1967), “Amerika gözəli” (1982), “Mərziyə” (1984), “Ləyaqət” (1986), habelə, “Dar ağacı” (2000), “Hara gedir bu dünya”, “Özümüzü kəsən qılınc” (Göytürklər) adlı pyeslərini yazmışdır. Bu əsərlərdə müxtəlif əqidəli, müxtəlif düşüncəli insanların surətləri yaradılmışdır... Qərb və Avropa Şərq üçün həmişə təsir mənbəyi olmuşdur. Etnosun, dilin, dinin və mədəniyyətin, sosial-siyasi üstqurumun təsir mənbəyi! Bəxtiyar Vahabzadə də bütün bunların mahiyyətini poetikləşdirmişdir.

***

Bəxtiyar Vahabzadə lirik “mən”ində daha çox ifadə olunan sənətkardır. Şairin lirik “mən”i – bədii insanı körpəlik, uşaqlıq illərindən başlanmışdır. *Beşik* lirik “mən” üçün ilkinlikdir, ata, ana və babanın yatdığı, ümidlərin, arzuların, diləklərin çiçəkləndiyi, Sabirlərin, Nəbilərin, Babəklərin dərdə, qəmə qılınc çaldığı, Üzeyir nəğməsi, Füzuli şeirinin kök atdığı yerdir. Beşik uzaq səfərlərin, böyük yolların başlanğıcı, fəqət bir beşiyə sığan Nəsimilərin cahan qədər böyüyən məkanıdır:

*Bu torpaqdan qüvvət alıb boy atdıq,*
*Vətən üçün biz yaşadıq, yaratdıq.*
*Bülbül ötməz gülüstansız, çəmənsiz,*
*Biz də köksüz budaqlarıq vətənsiz.* [12, s.107]

*(“Beşik”)*

“Körpə nəfəsi” (1954), “İllər” (1955), “Bəzən soruşuram özüm özümdən” (1964) – psixoloji-mühakiməli, analitik şeirlərdir. Bədii mətndə qavrayışla anlayışların birgəliyi, hissi ilə məntiqinin vəhdəti bu şeirlərdə güclüdür:

*Biri digərinə necə təşnədir,*
*Ananın laylası, balanın səsi.*
*Dünyada ən incə, ən pak nəğmədir*
*Körpə mışıltısı, körpə nəfəsi.* [13, s.207]

*("Körpə nəfəsi")*

Şair lirik "mən"ini ilk əvvəl arzularında axtarmışdır. "Arzularım qədər ömrüm olaydı" (1956) deyən lirik "mən"in təhkiyəsi sonra lirik "o", "mən" və "onlar"la bağlanır. Arzuların yuvası ürəklərdir. Lirik "mən"in arzuları hüdudsuz olduğu kimi, ürəyinin də min bir halı vardır. Bu ruhi hallar "Bir ürəyin min duyğusu", "Ucalıq" şeirlərində də ifadə edilmişdir. Şeirdə duyğu, qavrayış, təsəvvürlə bərabər, anlayış, mühakimə və əqli nəticələrin əlamətləri duyumludur. Şair ürəyinin min bir halından halbahal olur:

*Ey rəssam, dünyada yeddicə rəng var!*
*Arzular rəngbərəng, diləklər zəngin.*
*Hər ürəkdə yatır min cür duyğular,*
*Onları çəkməyə çatarmı rəngin?!* [10, s.33]

*("Bir ürəyin min duyğusu")*

Bəxtiyar Vahabzadə "mən"inin –insanın beşikdən, ana laylasından sonra tərbiyə ocağı məktəbdir. Şair "mən"i atası, anası, müəllimləri, məktəbi və zəhmətkeşliyi ilə qürurlanır. "Məktəb yolları" (1947), "Qızıl medal" (1947), "Yazı taxtası" (1952), "Tələbə – müəllim", "Müəllim" (1955), "Qiymət", "Kitab" – Bəxtiyar Vahabzadənin pedaqoji şeirlərindəndir. "Məktəb yolları" lirika ilə epikanın ortaq başlanğıcıdır. "Qızıl medal" isə təmiz lirik şeirdir."Müəllim" (1955) şeiri şairin müəllimi Səidə İmanzadəyə həsr olunmuş, xatirə, təəssürat, ovqat şeiridir."Qiymət" isə lirik "mən"lə lirik "o"nun şeiridir. Qiymətləndirmə və dəyərləndirmə şeir üçün səciyyəvidir. "Əlifba" (1956) isə lirik "mən"lə lirik "sən" şeiridir. Bəxtiyar Vahabzadə pedaqoji mövzuda "Qiymət" adlı poemada da yazmış, özü də professor, akademik kimi BDU-nun auditoriyalarında dərs demişdir.

Pedaqoji məziyyət Bəxtiyar Vahabzadənin ana mövzusuna da aiddir. Şairin "Körpə nəfəsi" (1954), "Oğluma", "Ana hədiyyəsi" əsərləri bu baxımdan ənənənin yeni əsasda davamıdır...

Bəxtiyar Vahabzadə 1963-cü ildə anasının ruhuna elegiya olaraq "Anam haqqında şeirlər" silsiləsini yazmışdır."An – min il", "Başdaşı", "Zaman", "Bu gün yeddin oldu" şeirlərində sənətkarın lirik, psixoloji-mənəvi düşüncələri ifadə olunmuşdur:

*Məni boya-başa yetirdin, ana,*
*Bizə borclu bildik hər zaman səni.*
*Sən məni dünyaya gətirdin, ana,*
*Mənsə yola saldım dünyadan səni.* [14, s.23]

*("Bu gün yeddin oldu")*

Şair "Şəhriyara" (1965) şeirində ana südü, ana laylasının qüdrətindən söz açmışdır:

*Haray sənə, ilk hıçqırıq, ilk nəfəs,*
*Haray sənə, ana südü, doğma səs!*
*El-obasız ömür quru bir qəfəs.*
*Xoşdur yenə bu dünyanın cəfası,*
*Qüdrətlisən, ay anamın laylası.* [15, s.86]

*("Şəhriyara")*

Bəxtiyar Vahabzadə 1950-ci illərin sonunda Mərakeşdə olanda görmüşdür ki, onlar ana dilində yox, fransızca danışırlar... Geri qayıdandan sonra "Latın dili" adlı şeirini yazmışdır... Sənətkar müəyyən cəza və təzyiqlərə məruz qalmışdır.

Doğma ana dili haqqında olan "Riyakar" (1967) şeirində şair ana dilini tərənnüm etmişdir. Necə? Vətən, vətən deyənlər öz övladını əcnəbi dildə oxudur. Özgələrə dilini öyrən deyənlərin özü isə öz dilini bəyənməyir, riyakarlıq edir...

"Üz-astar" şeiri təzadların harmoniyasıdır. Bəxtiyar Vahabzadə şeirinin kökü torpaqdan, eldən gəlir, şirəsini torpaqdan çəkir. Bu duz, şirə ana torpaqda, deməli, həm də ana dilindədir. Çünki ruhun, şeirin ifadəsi bu dildədir.

Sənətkar "Şair" şeirində bir daha səsləndirmişdir ki, xalqın dili onun ruhudur və xalqın ruhu onun dilidir. Dil mövcudluqdur. Şeirdə vətənsizlik ifşa olunmuş, əcdadların vətənə mehri isə tərənnüm edilmişdir:

*Səninçün nə vətən, nə millət, nə din,*
*Xalqın hesabına kefini çəkdin.*
*Alışa bilmədin halal zəhmətə,*
*Haram bulağından sən su içmisən.*
*Ananın dilinə, yurda, millətə,*
*Anadan olalı özgələşmisən.* [16, s.216]

*("Şair")*

***

Bəxtiyar Vahabzadə psixologizminin min bir poetik halı vardır. Onun təzahürlərindən biri ithaflarla bağlıdır. Şair ithaflarını ədəbiyyat və incəsənət adamları, şəxsiyyətlər, qəhrəmanlar, məkanlar və əşyalara aid etmişdir. Bu ithaflar həm də klassik və müasir (çağdaş) ədəbi şəxsiyyətlər haqqındadır. Sənətkar Dədə Qorqud haqqında "Qorqud obrazı və tarixi, ictimai hadisələr", Nizami haqqında "Gəncəli Nizami", Nəsimi haqqında "Salam, Nəsimi" (1980), "Fikir bahadırı", Yunus İmrə haqqında "Yunus İmrə" (1987), "Yunis İmrəyə" (1987), "İki zirvə haqqında düşüncələr", Füzuli haqqında "Qəlb şairi", "Yer oğlu, yer şairi", "Leyli və Məcnun", "Eşq və gözəllik", "Füzuli əzəməti", "Füzuli və Şekspir", "Heyrət, ey büt...", "Füzuliyə" (1957), "Öldü–yaşadı", "Böyük Füzuliyə" (1960), M.F.Axundzadə haqqında "Karvan gedir", Aşıq Ələsgər haqqında "Aşıq Ələsgər", M.Hadi, H.Cavid, M.Ə.Sabir, Mirzə Cəlil və Cəfər Cabbarlı haqqında "Əslimiz, kökümüz" və "Cəfər Cabbarlıya" (1960), Cəlil Məmmədquluzadə haqqında "Mirzə Cəlilə" (1960), "Mirzə Cəlil" (1967), "Anamın kitabı", Mirzə Ələkbər Sabir haqqında "Sabir, yenə Sabir", "Sabir və Tukay", M.Hadi haqqında "Sənətkarın faciəsi", Hüseyn Cavid haqqında "Hüseyn Cavid", Əhməd Cavad haqqında "Əhməd Cavad", Səməd Vurğun haqqında "Folklor və Səməd Vurğun", "Ayrılır" (1956), "Əziz şairimiz" (1956), "Qocalarmı" (1956), "Səməd Vurğuna" (1976), Üzeyir Hacıbəyov haqqında "Ölməz sənətkar" (1948), Osman Sarıvəlli haqqında "Osman Sarıvəlli", Süleyman Rəhimov haqqında "Yüz ömrün səsi", Rəsul Rza haqqında "Ey şair, sən haqlısan", Hüseyn Arif haqqında "Həyatın nəfəsi şeir deyilmi?" (1969), Çingiz Aytmatov haqqında "Kamil əsərlər", "Çingiz Aytmatova məktub", Yavuz Bülənd Bakilər haqqında "Türküstan, Türküstan", Mehmet Akif haqqında "İstiqlal nəğməkarı", Yəhya Kamal haqqında "İstiqlal nəğməkarı", Cavad Heyət haqqında "Dostum Cavad Heyət", Sönməz haqqında "Ağır illər nəğməkarı", İsa Hüseynov haqqında "Adlar, ləqəblər" (1967), Əli Kərim haqqında "Əli Kərim", Xəlil Rza Ulutürk haqqında "Xəlil Rza" (1976), "Vətən məcnunluğu" (1992), "İstiqlal şairi" (1998), Məmməd Araz haqqında "Bir qəlbin yükünü qatara yığsan" (1982), Nəriman Həsənzadə haqqında "Nəriman Həsənzadə" (1982), Əliağa Kürçaylı haqqında "Bütövlük", Qabil haqqında "Təzə duyğular", Fikrət Qoca haqqında "Fikrət Qoca", Məmməd Aslan haqqında "Sözün şəhdi, dilin nəğməsi", Vaqif Səmədoğlu haqqında "Hörmətli Vaqif Səmədoğlu",

Cabir Novruz haqqında "Əqidə şairi", Musa Yaqub haqqında "Təbiət şairi", Anar haqqında "Gözəl əsərlər müəllifi", Elçin haqqında "Ölüm hökmü", Sabir Rüstəmxanlı haqqında "Açılan yolların mahnısı" (1986), Zəlimxan Yaqub haqqında "Biz bir eşqin butasıyıq", Mövlud Süleymanlı haqqında "Köç romanı haqqında", Məmməd İsmayıl haqqında "Şairin ilham qaynağı" və sair şeir və məqalələrin müəllifidir...

Bəxtiyar Vahabzadə insanının bir səciyyəvi xüsusiyyəti də etiraflarla bağlıdır. Bunlar həm təsdiq, həm də inkar məzmunundadır. Lirik monoloq, daxili dialoq, lirik etiraf sənətkarın şeirləri üçün səciyyəvidir. Şair lirik etiraflarını psixoloji-fəlsəfi və əxlaqi-estetik şeirlərində daha geniş ifadə etmişdir ("Uzaqları gəzən könlüm" (1945), "Atam diyar, anam Şəki" (1946), "Mən də onun meyvəsiyəm" (1947), "Məktəb yolları" (1948), "İlk cığır" (1947), "Mənim dostlarım" (1949), "Müəllim" (1950), "Şeir və mən" (1950), "Tələbə-müəllim" (1951), "Yazı taxtası" (1952), "Ömür" (1956), "Ürək" (1956), "Qara saçlar, ağ saçlar" (1957), "Mənim yolum" (1957), "Yenə bir arzum qaldı" (1957), "Ağıl-göz" (1963), "Sinif-həyat" (1963), "Bir ürəkdə dörd fəsil" (1965), "Şeirim imanım mənim" (1965), "Məktublar" (1965), "Ömür bizə verilmir" (1965), "Vaxt, sürət, fikir" (1966), "Mənim anam" (1968), "Ehtiyat" (1970), "Şəki" (1971), "Çörək – Vətən" (1972), "Əsgər-şair" (1974), "Buludlar-xatirələr" (1977), "Azərbaycan oğluyam" (1980), "Vətəndaş" (1980), "Dağda şəlalə kimi" (1982), "Dünyanın" (1984), "Mən insanam" (1985), "Nağıl – həyat" (1990), "Axı dünya fırlanır" (1991), "Körpü çaydan uzaq düşüb" (1992), "Qocalıq" (1992), "Allahu-Əkbər" (2001), "Əsarət-azadlıq" (2001), "Mənim ana dilim" (2001), "Biganəlik – korluğumuz" (2002), "Vicdan" (2006), "Mən türkəm" (2009 və s.) "Ürək" (1956) şeirindən:

*Mən bunu bilirəm, neyləyim ancaq,*
*Ayrıla bilmirəm təbiətimdən.*
*Əsir nifrətimdən tir-tir ürəyim,*
*Daşıram sel kimi məhəbbətimdən.* [17, s.5]

*("Ürək")*

Şairin etiraflarının məzmunu onun psixoloji, mənəvi-əxlaqi şeirlərində də özünə yer almışdır. Psixologizm Bəxtiyar Vahabzadə poeziyasında əxlaq və fəlsəfədir, məna və mahiyyətdir!

***

*Psixologizm* – duyğu, qavrayış, təsəvvür və təxəyyül Bəxtiyar Vahabzadənin poetik idrakının hissi mərhələsini təşkil edir. Bu baxımdan onun bədii yaradıcılığı elə 1940-cı illərdən hissi-psixoloji keyfiyyət əxz etmişdir. "İllərə nə var ki" (1964) – psixoloji şeirdir. İllər yox, biz tələsirik. Zaman – qocalığın, arzu və qəlbin səsinə baxmır. Əməllərimiz çərçivəsinə sığmır. Onun ağrısını çəkən insandır. Qoca dünya "Bir yandan boşalır, bir yandan dolur"... Zəmanəmiz ilbəil öz mənasını dəyişir:

*İllərin ömrünü təqvimlə deyil,*
*Ölçək arzularla, əməllərlə biz.*

Zaman hər kəsin özüylə yaşıddır. İnsan arzusu hüdudsuzdur. Dünən bildiklərimiz bu gün kifayət etmir. "Əqlin təşnəliyi özü bir aləmdir. Həmişə yaşayır gələcək zaman." Ən gözəl günün ömrü hələ yaşanmayıb, onu əməllərimiz uzadır...

Bəxtiyar Vahabzadə hər şeyə heyrətlə bənd olmuşdur. Şair ancaq lirik, psixoloji və mənəvi analizlər etmiş, qəlbin min bir əsrarına suallar aramaq istəmişdir. Fəqət cavab tapmamışdır:

*Göylər damar, damar,*
*Yer lağım-lağım.*
*Bu heyrət, bu sual*
*Dindirib məni.*

*Hələ körpəlikdən bu heyranlığım*
*Sual köhləninə mindirib məni.* [18, s.57]

*("İllərə nə var ki")*

"Həqiqət" şeiri də analitikdir. İkinci şəxsin təkinə müraciətlə yazılmışdır. Psixoloji-mənəvi şeirdir, əxlaqi-mənəvi dəyərlərə qiymətdir:

*Həqiqət! Gözünün içinə baxmaq*
*Nə qədər gərəksə, o qədər ağır.* [19, s.151]

*("Həqiqət")*

"Vaxtında" şeirində mahiyyət budur: Həyatda gərəkli olmaq (gərək bilirlərsə dünyada səni, bir göz qırpımında ötüşər illər), dünyanın yükünü çəkmək, ölmək (dünyanın yükünü çəkirkən ölmək), zirvəyə can atmaq (zirvəyə ucalsın həyatın yolu), əməl sahibi olmaq (barama qurduna çox həsədim var, ölür öz işini qurtaran kimi), həyat eşqi (min il də yaşasan doyammazsan), ölümün qaçılmazlığı (vaxtında öləsən gərək, eşqində əbədi yaşamaq üçün), vaxtın dəyəri mənalandırılmışdır (gün var ki ildən də uzundur, il var ki gündən də qısadır). "Gün var, min ayə dəyər":

*Kim deyir, gün ömrü günə bərabər?*
*Kim deyir, həftə də elə həftədir.*
*Kim deyir, günəşin doğuşu səhər –*
*Gecənin ömrünə sondur, nöqtədir.* [11, s.107]

*("Vaxtında")*

Bəxtiyar Vahabzadə zaman və sürət fəlsəfəsinin mahiyyətinə, zamanla, sürətlə ayaqlaşmağın həm poetik, həm də publisistik mənasına varmışdır. O, "Sadəlikdə böyüklük" məqaləsində yazmışdır: "Zaman və müasir insan, bu gün poeziyanın baş mövzusuna çevrilmişdir. Bu haqda bütün şairlər fikir söyləməyə çalışır. Burada çoxları daha artıq zaman haqqında fikir söyləməyə, zamanı pis və ya yaxşı tərəfindən mühakimə etməyə səy göstərir. Lakin məncə, biz zamandan çox, müasir insandan, onun duyğularından danışmalıyıq. Çünki əslində dəyişən zaman deyil, insandır. Onun bugünkü hissləridir" [20, s.407]. Professor Yaşar Qarayev də demişdir ki: "Bəxtiyar Vahabzadəni ən çox cəlb edən mövzular sırasına bir də zaman və sürət, zaman və kosmos haqqında düşüncələrini daxil etmək olar. Bəxtiyarın kosmos şeirləri çoxdur. Həm də o, kosmosdan yalnız mövzu götürmür, bəlkə kosmosun bir sıra göstəricilərində – onun əzəmət, sonsuzluq və intəhasızlıq ölçülərində öz arzularının və duyğularının ölçülərini axtarır" [3, s.26].

Bəxtiyar Vahabzadə insan pxisologiyasının elə bir halı yoxdur ki, onu poeziyasında ifadə etməmiş olsun. Sözün həqiqi mənasında o, şair-filosofdur. Akademik Nizami Cəfərovun təbiri ilə desək: "Bəxtiyar Vahabzadə müasir dövrün böyük filosoflarından biridir. Həm də burada söhbət "şairin filosofluğu"ndan getmir, Bəxtiyar Vahabzadənin filosofluğu müstəqil filosofluqdur... Onun, ümumən, cəmiyyət, xüsusən, Azərbaycan cəmiyyəti barəsindəki mülahizələri bir qayda olaraq mükəmməl fəlsəfi təfəkkürün təzahürüdür. Cəmiyyətin iqtisadi, ictimai-siyasi, sosial, hüquqi, mənəvi özünü təşkili, dövrün, zamanın cəmiyyət qarşısına çıxardığı mürəkkəb problemlər, onların həlli, bəşəriyyətin təkamülü, etnik milli münasibətlər, müxtəlif millətlərin taleyi və sair məsələlər Bəxtiyar Vahabzadəni uzun illər düşündürmüş, onun filosof mövqeyinin müəyyənləşməsi üçün başlıca amillər olmuşdur" [21, s.37].

"Yaxşı bax dünyaya" (1980) şeirində Bəxtiyar Vahabzadə öyüd-nəsihət etmişdir. Dünya mənimdir, dünyanı özümə heyran qoymasam, bu dünyada yaşamaram, – deyənlərin işi təkəbbürdür. Əslində insan dünyanı gəzdikcə, hər ötən çağa həsrətlə boylandıqca, dünyaya elə heyran olur ki, onu özünə heyran qoymağa macal tapmır... Dünyanı özünə heyran edincə, mən özüm dünyaya hey-

ran kəsildim. Çalış bu dünyada yaşa, dünyanı özünə heyran qoymağa çalışma. Dünya düşüncəsi dünya iradəsinə tabedir!

Bəxtiyar Vahabzadə poeziyasında konkret və mücərrəd insan surətləri yaratmışdır. Bu insan bütün halları, rəngləriylədir. "Çəkisizlik" (1980) şeirində bu insan həmişə uçmağa can atır. İmkan olmayanda belə yuxularında uçmaq, ucalmaq arzusu fitrətindədir. O, daim düşüncədə, axtarışdadır! Şair demişkən: "Bəlkə qurtarmaq üçün ağırlığından düşmək istəmişdir çəkisizliyə. Ucalıqda dərd, qayğı fikrən, mənən sanki azalır. İnsan aludə olanda sanki kəpənək kimi havada uçur. Yaşamaq ona xoş olur. "Hər şey mahnı kimi, gül-çiçək kimi füsunkar görünür gözlərimizə". Şair insan xislətini axıradək oxumaq istəmişdir, haldan-hala düşmüşdür, doyumsuz qalmışdır:

*Elə ki ayıldı qayğılarından,*
*Mədədən yuxarı düşünür insan.*
*Ağırlıq getdimi, çəki itdimi?*
*İnsan qanad açıb uçur ruh kimi.*

*Küçələr, Döngələr, Evlər, divarlar,*
*Evdəki bucaqlar, Döşəmə-tavan,*
*Hər şey həndəsədir, Öz hüdudu var,*
*Çıxmaq istəyirəm bu hüdudlardan.*
*Çığırmaq istərəm mən bu arzumu*
*Bütün qulaqlara...*
*Eşitsin hamı.* [22, s.147]

*("Çəkisizlik")*

Bəxtiyar Vahabzadə poeziyasının psixoloji mövcudluğundan onunla birlikdə mənəvi-əxlaqi və fəlsəfi-estetik dəyərlər də doğulmuşdur. Sənətkarın qiymətli poeziyasının mənəvi-əxlaqi dəyərləri çox zəngindir. Ümumən, insanın daxili aləminə nüfuz AMEA-nın müxbir üzvü Yaşar Qarayev demişkən, Bəxtiyar Vahabzadənin uğurlu səyahətidir: "Belə bir hazırlıq şairin üçüncü planetə – insanın daxili aləminə daha uğurlu səyahəti üçün də ən yaxşı zəmin olur. Bəxtiyar Vahabzadənin yaradıcılığında üçüncü mərhələ – yetmişinci illər məhz bu üçüncü planetin əsas bədii təsvir və təhlil predmetinə çevrildiyi dövrdür. Onun bu illərdə yazdığı əsərlərdə poetik dialoqun ən əsas forması artıq "mən və dünya", "mən və zaman" deyil, bəlkə "özümlə özüm", "mənlə mən", "Bəxtiyarla Bəxtiyardır". "Dağda şəlalə kimi", "Sürət", "Özümü axtarıram", "Özümüzdən öyrənək", "Özümdən narazıyam", "Nəsənsə, özün ol", "İkinci səs", "Şəhidlər" – bu əsərlərin adlarının özü də dediyimiz mərhələnin xüsusiyyətlərini yaxşı ifadə edir" [2, s.97].

Bəxtiyar Vahabzadə poeziyasında insan obrazı mühüm yer tutur. Məsud Əlioğlu "Şair ləyaqəti, şair sevgisi" məqaləsində yazmışdır: "İnsan mənəvi ləyaqətin rəmzidir və bu ləyaqəti qiymətləndirən həlledici qayə – Vətənə, xalqa və ümumən, bəşəriyyətə insanın nə dərəcədə və nəyə görə gərəkli olmasıdır. İnsan özü-özünə lazım olmalıdır ki, cəmiyyət ondan faydalansın. Yox əgər insan yalnız özünə lazımdırsa, bax bu, doğrudan da, müdhiş faciədir. Şairin yandırıcı və qəzəbli bir dillə Vətənin karına gəlməyən miskin, yaramaz insanları yerində lənətləndirməsi də, bu cəhətdən diqqətəlayiqdir. Müəllifin son illərdə yazdığı "Təzadlar", "Baş", "Zərrə-dünya", "Siqnallar", "Kor", "Uzaqlarda-yaxınlarda", "Ölüm-həyat" şeirlərində yaşadığımız əsrin mürəkkəb və ziddiyyətli məsələlərini, düyümlü-anlaşılmaz, hikmətli və hələ də dərkedilməz bir planet olan insanın mənəvi fikir aləmini müasir, ayıq və düşüncəli vətəndaşın nəzərləri baxımından araşdırmaq meyli xeyli qüvvətlidir" [23].

Bəxtiyar Vahabzadə bütün yaradıcılığı boyu insan mövzusunu davam etdirmiş, onun mühakiməsini qurmuş, qeyri-adiliyi, zəkanı, zəifliyi, acizliyi, hünəri, qeyrəti, qəhrəmanlığı göstərmişdir. Fəqət hamısı təzadlı həyat kimi, işıqda kölgə, ayrılıqda vüsal kimi! Başqa sözlə, İnsanda Zaman, İnsanda Fəlsəfə, Fəlsəfədə İnsan və Zaman kimi! Filosof Rahid Ulusel deyir: "Sənətkarın diqqətində

dayanan İnsan və Zaman – onun yaradıcılığında ümumi, mücərrəd anlayışlar kimi deyil, konkret, realist təhlilini tapan obrazlar kimi səciyyələnə bilər. Bəxtiyar Vahabzadə ən dolğun şeirlərində cəmiyyətin sosial ab-havasını, bu günün əxlaq və mənəviyyat qatlarını, bəşəri-sual-problemləri, tarixin və çağdaşlığın ortağı kimi – cilalanmış, sınanmış səviyyələrdən dəyərləndirir. Onun lirik-fəlsəfi yaradıcılığına mövqe və dünyagörüşü aydınlığı, konsepsiya tamlığı, poetik-həyati əqidənin dəyişməzliyi xasdır. Bəxtiyarın şeirlərində olumların fəlsəfi mahiyyəti həm ədəbiyyat qanunlarından, həm də bitkin zaman və məkan sferasından çıxış edərək aşkar olunur və nəticədə, o, şairin estetik idealı tərəfindən aydın, qəti şəkildə ya inkar, ya da təsdiq edilir. Burada dünyanı öyrənən idrakın özü öyrənilir", sirlər dünyasına yol alan kamalın" – külli-aləmi suallara tutan idrakın özü suallar qarşısında qalır. Bəxtiyar Vahabzadə fəlsəfi lirikanın gözəl nümunəsi olan "Düşüncə" şeirində sanki bütün varlığın gərgin, coşğun bir düşüncəyə qərq olmasını simvolik tərzdə təsvir edir" [24, s.163].

Şairin fəlsəfi dərki 1990-cı illərdən subyektiv idealizmə doğru meyillənmişdir. Mütəfəkkir sənətkar dünyanın və insanın mahiyyətində Allahın dayandığını və kainatın Onun tərəfindən idarə olunduğunu dəfələrlə bildirmişdir. Şairin Allah, Peyğəmbər, İslam və məsumları haqqında qiymətli fəlsəfi şeirləri vardır.

Bəxtiyar Vahabzadə fəlsəfəsinin əsasında dünya və insan dayanır. Professor Yaşar Qarayev demişkən: "Şair həm tarix, həm də dünya adlı iki planetə eyni vaxtda səyahətə çıxır. İnsanı da iki qoşa planetdə –zaman və bəşər laylarında təsvir edən şeir və poemalarını yazır. Onun "insan və zaman " "mən və dünya" silsilələri tarix etibarilə bu vaxtdan başlayır" [3, s.4].

"Xeyir-şər" (1986) fəlsəfəsinə şairin öz münasibəti olmuşdur. O, insanı Allahın verdiklərini xeyir işlərə sərf etməyə çağırmışdır. İlk bənddə insana təbiətin verdiyi əllər – kiminsə əlindən tutub qaldırmaq üçündür. Əməl üçün bir ağıl verib ki, əməl sahibi, əmək sahibi olaq, çayların üstündən körpülər quraq. Ata-anamız da dil verib ki, "darda çırpınanın halını soraq". Dillər – yalan yox, mahnı demək üçündür. Mahnıda hisslər birləşir, yalanda yollar ayrılır. Əl, dil və ağıl xeyirli işlərə işlədilməlidir...

"Nəyinsə ilkidir, nəyinsə sonu" (1985) şeirində hərəkət yaşamağın, əbədiyyətin meyarı kimi mənalandırılmışdır: Dünya fırlanır ki, zamanı önləyib ötən olmasın. Dünya fırlanır ki, ələ keçməsin, ətəyindən tutan olmasın. Dünya fırlanır ki, an idrakın önündə əyilməsin. Dünya fırlanır ki, insan ölməmiş dünyadan dünyaya keçə bilməsin. Dünya fırlanmasa, həyat, yer təzələnməz. Dünya nəyinsə ilki, nəyinsə sonudur. Dünya fırlanmasa, son ilkə dönməz. Şair iqrari hökm etmişdir:

*Dünya fırlanır ki, biz də onun tək,*
*Fırlanıb qanmayaq min bir felini.*
*Dünya fırlanır ki, tapa bilməyək,*
*Onun nə sonunu, nə əvvəlini.* [25, s.79]

*("Nəyinsə ilkidir, nəyinsə sonu")*

Bəxtiyar Vahabzadə şeirlərində mühacir insanın da obrazını yaratmışdır. "İki mühacir" şeirində iki cür mühacir ilə tanış oluruq. Vətən üçün burnunun ucu göynəyən mühacirlər var. Onlar hər gecə yuxularında, düşüncələrində vətənə uçur. Qəriblik çəkilmək bilməyən ağır dərddir. "Türbə qəbirləri əcdadımızın torpağa işləyən kökləridir". Bir insan üçün vətən torpağı ilə qürbət torpağı eyni deyildir. İnsan vətən torpağı üstündə olanda min dəfə güclü olur. Vətənsiz yaşamaq isə yaşamaq deyil. Vətəndən kənarda yaşayanlar isə mühacirlərdir":

*Fəqət vətənin içində yaşayıb ancaq,*
*Özünü vətənə yad sayanlara,*
*Özgə məbədinə baş qoyanlara*
*Nə ad verək biz?* [26, s.101]

*("İki mühacir")*

Bəxtiyar Vahabzadə xəlqi, milli və bəşəri sənətkardır. Akademik Məmməd Cəfər "Şairin səsi – xalqın səsi" məqaləsində yazmışdır ki: "Bu millilik və beynəlmiləlçiliyin vəhdəti onun beynəlxalq mövzuda yazdığı əsərlərində və ümumiyyətlə, siyasi lirikasında çox parlaq ifadəsini tapmışdır" [5].

Bəxtiyar Vahabzadənin milliliyindən həm də bəşərilik keyfiyyətləri nəşət almışdır. Nəbi Xəzri yaxşı qeyd etmişdir ki: "Azərbaycan poeziyası bəşər tarixində ən qədim, ən cavan poeziyadır. Ondakı fikir zənginliyi və müdrikliyi, ondakı təravət və hərarət, ondakı coşğunluq və səmimiyyət bütün dünyada məşhurdur. O uzaq əsrlər arxasından uzaq sabaha gedən poeziyadır. Çünki insani mehribanlıqdan, nəcabətdən doğan poeziya həmişə bəşəri poeziya olmuşdur" [27].

Bəxtiyar Vahabzadənin yaratdığı insan obrazı vətənpərvər olduğu qədər vətəndaş və şəxsiyyətdir. Tənqidçi Vaqif Yusifli yaxşı yazmışdır ki: "Müasir Azərbaycan poeziyasının vətəndaşlıq lirikası ilə zənginləşməsində Bəxtiyar Vahabzadənin xidmətləri daha qabarıq görünür. Onun əksər şeirləri, poemaları və dram əsərləri məhz bu bünövrəyə söykənib. Beşik... Ana laylası... Köklər... Budaqlar... Bunlar Bəxtiyar poeziyasının vətəndaşlıq lirikasında tez-tez səslənən sözlərdir. Amma adilikdən, ilk mənasından çıxıb ülviləşən sözlər... Kök və budaq şairin təsəvvüründə insan və torpaq birliyi qədər müqəddəsdir. Kökə bağlı olan insan həm də vətənin zirvəsidir, onun təcəssümüdür" [28].

Vətənpərvərlik və humanizm Xəlil Rza və Məmməd Araz kimi Bəxtiyar Vahabzadənin də yaradıcılığından qırmızı xətlə keçmişdir. Şairin vətənpərvər insanının yolu, məkanı ana qucağından, laylalardan, beşikdən başlamışdır. Sonra həyat-baca, od-ocaqla tanış olmuş, bərkə-boşa düşmüş, küçəsində, yolunda, kəndində, şəhərində qərar tutmuş, təbiətindən güc-qüdrət almış, dərs götürmüş, dünyaya üz tutmuşdur.

Bəxtiyar Vahabzadənin poeziyada gözəllik nədir – sualını cavablandırarkən şairin "Əslimiz, kökümüz" adlı məqaləsi də köməyimizə gəlir. Şair yazmışdır: "Ali məktəbdə oxuduğum vaxt professor Əli Sultanlının Qərb ədəbiyyatından dediyi şairanə mühazirələri məni gözəllik dünyasına daha çox bağladı. Şahzadə Hamletin, qoca Lirin, qısqanc Otellonun, namus mücəssəməsi Karl Moorun faciəsini şəxsi faciəm kimi yaşayır, bu böyük qəhrəmanların haqsızlığa, riyakarlığa və zorakılığa qarşı üsyanına şərik çıxdım. Axı bu adamlar uca duyğularla, yüksək amallarla yaşayır, şər qüvvələrlə ədalətli mübarizə aparır, gözəllik və təmizlik dünyasına can atırlar." "Əslimiz, kökümüz" ("Anamın kitabı" haqqında).

Bəxtiyar Vahabzadə gözəlliyinin fitrətində dayanan zahiri effekt yox, həm də təmizlik, böyüklük və ucalıqdır! Şair "Xəlil Rza" məqaləsində yazmışdır: "Gözəllik nədir? Təmizlik, böyüklük, ucalıq! Bunlar nə zaman mümkündür? Böyük bir fikrə, böyük bir əqidəyə qulluq edəndə!.. Əqidəsiz, fikirsiz nə təmizlik var, nə böyüklük! Bütün bunlar isə bəşəriyyətin həmişə can atdığı ideal kamillik, bütövlük və gözəllik deməkdir" [20, s.345]. Gözəllik Bəxtiyar Vahabzadə üçün kosmik fəza, Kosmos isə heyrətdir!

Bəxtiyar Vahabzadənin vətənpərvər insanı həm maddi, həm də mənəvi sevgisində yol gedir. O, vətən, təbiət gözəlliklərinə aludə olduğu qədər yanğı ilə sevir, gözəlliklərə könül bağlayır, məhəbbətinin min bir halını dilləndirir.

Bəxtiyar Vahabzadənin insanı vətənpərvər olduğu qədər vətəndaşdır. Gözəllik aşiqinin fikir və düşüncələrində vətəndaş birlikdir, vətənə, torpağa, dünyaya cavabdehlik məsuliyyətidir. Hər kəs vətənpərvər ola bilər, vətəndaşlıq isə əqidə bütövlüyü, məqsəd və məram aydınlığıdır. Bu mənada Bəxtiyar Vahabzadənin insan və zaman fəlsəfəsinin tutumlu ifadəsi həm də onun nadir poeziya nümunəsi olan "Vətəndaş" (1980) şeirində verilmişdir. AMEA-nın müxbir üzvü, professor Yaşar Qarayev yazmışdır: "Bəxtiyar Vahabzadənin vətəndaşlıq lirikası – siyasi və estetik sentensiyaların yox, hər şeydən əvvəl canlı, narahat, axtarıcı fikrin və hissin lirikasıdır. Bu xüsusiyyət şeirdən şeirə daha da dərinləşmişdir. Bəxtiyar Vahabzadənin vətəndaşlıq lirikası, əlbəttə, ancaq vətənin tərənnümü ilə məhdudlaşmır; ümumxalq miqyaslı və dəyərli problemlər, əxlaqi və mənəvi düşüncələr də onun vətəndaşlıq lirikasının məzmun və ideyasını təşkil edir" [21, s.69].

Sənətkarın vətəndaş insanı həyat və dünya kimi təzadlarıyla olub, ölkəyə və dünyaya doğmalıq, ucalıq təlqin edir! Bəxtiyar Vahabzadə vətənimizin, xalqımızın çox şəxsiyyətləri haqqında yazmış, onlara çoxlu ithaflar həsr etmişdir. Yenə professor Y.Qarayev: "Bəxtiyar şəxsiyyəti yaradıcılığında qabarıq təzahür edən şairlərdəndir. Onun poetik "mən"i, fərdi üslubu, lirik qəhrəmanı poeziyamızın mənzərəsində aydın cizgiləri ilə seçilir. Şairin əksər şeirləri arasında bədii-fəlsəfi cəhətdən dərindən qavranılan daxili poetik vəhdət duyulmaqdadır. Bu vəhdətin ahəngi və aydınlığı həmin əsərlərə tamlıq və bütövlük, ideya, mövzu və məqsəd ümumiliyi, vahid proqram istiqaməti və məqsədəuyğunluğu verir" [3].

Bəxtiyar Vahabzadə görkəmli şəxsiyyətlərə amal və əqidə bütövlüyü yüksəkliyindən baxmış və dəyər vermişdir. O, yeri gəlmişkən, Xəlil Rzanı "İstiqlal şairi" məqaləsində belə səciyyələndirmişdir. "Deməк, şeiri ondan ötrü fikirlərini həyata keçirmək üçün döyüşkən əsgər, Vətəni Azərbaycanın səadəti və istiqlalı isə məqsəddir... Beləliklə də, Xəlilin amal və əqidə bütövlüyü onun şəxsiyyət bütövlüyünün təməl daşıdır. Bu isə onun şəxsiyyəti və amalı qarşısında səcdəyə layiqdir" [29, s.35].

Bəxtiyar Vahabzadə poeziyasının bədii fəlsəfəsi şairin məntiqi idrakından doğulmuşdur. Sənətkar poetik fəlsəfəsində subyektiv materialistdir. Onun fəlsəfəsini hasilə gətirən psixologizm və mənəvi-əxlaqi keyfiyyətlərdir. Şairin sənət fəlsəfəsi insan fəlsəfəsidir. Fəlsəfi dərketmə Bəxtiyar Vahabzadənin intellektual poeziyasından nəşət almışdır. M.İbrahimov "Uca fikirlər, coşğun ehtiraslar poeziyası" məqaləsində yazmışdır: "Şairin bədii təfəkkürü həmişə fəlsəfi ümumiləşdirmələrə meyil edir. O, bir çox əsərində bütün bəşəriyyəti düşündürmüş və düşündürən böyük fəlsəfi məsələlərin poetik ifadəsini yaradır. Məlumdur ki, insan tarixinin böhranlı dövrlərində bir sıra ölkələrdə dini fanatizm güclənir. İndi bunu biz həm xristianlığın, həm islamın, həm də başqa dinlərin hakim olduğu ölkələrdə müşahidə edirik. Bəxtiyar Vahabzadə yeni şeirlərində orta əsr fanatizmini diriltmək istəyənlərin bu "fəlsəfəsini" puç edir" [24, s.14].

Bəxtiyar Vahabzadə "Baş" (1968) şeirində "Hanı o əvvəlki əqidə, məslək, Əgər fikri yoxsa, özü sağmıdır? Yaşamaq xətrinə fikri dəyişmək, Məsləki dəyişmək yaşamaqmıdır", – deməklə insan üçün fikir mövqeyinin olmasını, məslək və əqidənin vəhdətini vacib bilmişdir. İnsanın öz fərdiyyəti, fikir və düşüncəsi olanda o yaşayır! Sənətkar "Gözəl duyğular, dərin fikirlər şairi" məqaləsində yazmışdır: "Məslək eşqi! Budur hər cür qəhrəmanlığın mayası! Ölümün qapıdan içəri girdiyini görə-görə yazmaq, ölümə meydan oxumaq, ölümə qalib gəlmək deməkdir. Nə ilə? Ürəkdə çırpınan əqidənin ölməzliyinə inamla, inam hissi ilə! İnsan öz əqidəsinin böyüklüyünə, ölməzliyinə inanırkən ölüm onun qarşısında kiçilir, ölür. Axı insanı yaşadan arzudur, əqidədir! Əqidəsiz insan sükansız gəmiyə bənzər" [11, s.198].

"Zərrə, dünya" (1968) şeirində müəllif göstərmişdir ki, insan anasından yox, fikirdən, arzudan doğulur. İnsanı dərdlər, qayğılar böyüdür. Hər insanın öz dünyası var...

"Zaman-məkan" (1980), "Mənə iztirab ver", "Qoy bir az yatım", "Dərinsən, zirvəsən" (1980), "Səsin işığında" (1982) kimi şeirlərində şair hissi idrak səvviyyəsini: duyğu, qavrayış və təsəvvürü ifadə etmişdir. Şair hər bir maddi cildi, predmeti, hal-hərəkəti mənalandırmış, ona fəlsəfi-estetik məna vermək istəmişdir. Məsələn, ayrılıq lirik "mən" üçün anın, vaxtın dayanmasıdır. "Zaman-məkan" şeirində lirik "mən"in sevgilisindən ayrıldığı an – yaddaşın anına, koduna çevrilir.

"Mənə iztirab ver" (1981) şeirində isə sevgi və vəfanın rəhni həm də iztirab olmuşdur:

*Könül gecə-gündüz təlatüm istər,*
*Günahkar bilmərəm burda kimsəni.*
*Mənə iztirab ver, mənə əzab ver,*
*Mənə işgəncə ver, çox sevim səni.* [30, s.47-48]

*("Mənə iztirab ver")*

Bəxtiyar Vahabzadənin fəlsəfəsi subyektiv başlanğıcla bərabər, obyektiv predmetlərdə doğulmuş, onlardan qaynaq götürmüşdür. Belə baxanda şairin fəlsəfi düşüncələrini, fikirlərini adi faktlar, predmetlər hərəkətə gətirmişdir. Lakin şairin bütün fəlsəfi görüşlərinin əsasında an, vaxt, zaman, hərəkət, həyat və ölüm dayanmışdır. Şair adiliklərdən istifadə etməklə qeyri-adi olanları, həqiqət və heyrəti ifadə etmişdir! "Baş daşında saat" (1986) şeirində sənətkar üçün vaxt və zaman əvəzsiz nemətdir. Çox şeirində vaxtın, zamanın fəlsəfəsini, rəngini, dadını, tamını ifadə edən sənətkar bu şeirdə də onun poeziyasını ifadə eləmişdir. Professor Yaşar Qarayev "Düşündürən poeziya" məqaləsində yazmışdır: "Adı "XX əsr" olan zamanın obrazına şairin yaradıcılığında tez-tez rast gəlirik. Lakin Bəxtiyar poeziyasında "zaman" anlayışı dəqiq sərhədlərə sığışdırılan konkret, tarixi bir dövrün – müasirliyin hüdudlarından çox-çox kənara çıxır. Zamanla ünsiyyət burada həm də tarix və əbədiyyətlə, gələcəklə müsahibə deməkdir; dərin bəşəri düşüncələrə dalan, dünyanın taleyi üçün həyəcan keçirən şairin daxili nitqi, öz mənəvi vicdanı ilə müsahibəsi deməkdir. Geniş fəlsəfi mənada zaman və düşünən lirik şair "məni" – Bəxtiyar şeirində poetik dialoqun iki dəyişməz, iki daimi qütbüdür."

Şeirdə ölüm və zamanın təzadı – fəlsəfəsi əks olunmuşdur. Şair başdaşına yerləşdirilmiş saat faktından çıxış edərək nə qədər mühakimələr irəli sürmüşdür. Ölüm və zamanın hikmətini əslində dərk etdiyi, mənalandırdığı sirləri, ehtizazları səsləndirmişdir. Yaşamaq (həyat) keçmiş zamanın doğumu, gələcək zamanın ölümüdür. Ölüm insan üçün (yaşamaq, həyat) gümandır. Ölümün gerçəkliyində zaman dayanır. Dünyadan köç, əslində, keçmişə (vaxta) gömülməkdir. Vaxt, zaman donanda (qəbir daşlarında susan saat əqrəbləri) nə qədər qəribə görünür saat! Şair daha dərin fəlsəfi-psixoloji hallara dalır. Şairin hissi, duyğusu köz kimidir, içərisi daha odlu, daha hərarətlidir. Bu isə məntiq, məna və mahiyyətdədir. Ölümlə həyat da ikilidir. Üst qat (həyat) vaxta və zamana – alt qata (ölüm) sığmır. Həyat – vaxta, anlara sığır. Ölüm isə zamana, saata sığmır. Necə ki həmişə gələcək zaman öndə, genişlikdədir. Keçmiş zaman isə "yatır qəbirdə". Şair yekunlaşdırır – ən tutumlu fəlsəfi qənaət:

*Vaxt – yerin üstündə keçəridirsə,*
*Əbədiyyət olur yer altında an.*
*Yerin üst qatında o dövr edirsə,*
*Yerin alt qatında nüvədir zaman.* [26, s.186]

*("Baş daşında saat")*

Bəxtiyar Vahabzadə həyatla bərabər, ölüm mövzusunda da yazmışdır. "Nəhayət, şairi zaman və yoxluq, zaman və ölüm səltənəti arasında əlaqə və təzadlar mövzusu narahat etmişdir ("Nekroloq", "Baş daşı"). "Ölüm haqqında düşüncələr" (1986) şeirində ölümün fəlsəfəsi belədir: şeirdə güman, şübhə, inam, hökm, sual, cavab, təskinlik və heyrət ölüm düşüncəsindən alınıb poetikləşdirilmişdir. Ölüm – yox və var birgəliyidir. Yox olanın yenidən doğulması arzudur, istəkdir: – Bu, bəşəriyyətin ulu niyyətidir. Fəqət varlıq əbədiyyətdir! Ölüm də yoxluğun əbədiyyətidir! Şair var olanın fəlsəfi antitezasını yox anlayışında düşünmüşdür. Sual: Ölüm qorxudur? Ölümünü düşünsən, qorxacaqsan. "Ölüm qorxuludur onun dəhşətini düşünən zaman". Bəs düşünməmək necə? Mümkünmü?!

Şair ölümü düşünməyəndə ölümdən nə nəticə hasil edir? Hər gün içimizdə kəsişən səs var. Həyat, ölüm düşüncəsinin ölümsüz, əbədi olan qatına yüksələn kəslər (bəşər) xoşbəxtdir. Deməli, ölümsüzdür! Fəqət ölüm bütün hallarda qorxuludur. Ölüm yoxluqdur! Bu yoxluq isə var deməkdir! Şeirdə fəlsəfi yekun belədir:

*Yaşamaq çətindir, ölümün hər an*
*Yoxluq olduğunu biləndən sonra.*
*Bir şey bilirdinmi doğulmamışdan,*
*Nəyi biləcəksən öləndən sonra?* [31, s.29-31]

*("Ölüm haqqında düşüncələr")*

Yeri gəlmişkən, onu da xatırlayaq ki, professor Yaşar Qarayev onun poeziya fəlsəfəsindən danışarkən yazmışdır: “Lakin fəlsəfi “Zaman” obrazı bu poeziyada heç də hər cür konkretlik fövqündə durmur, sərhədsiz, mücərrəd simvol təsiri də bağışlamır; əksinə, şairin milli, ictimai və estetik idealı ilə bilavasitə əlaqələnir. Bəxtiyar şeirində zamana maraq – xalqın mənəvi əbədiyyətinə, mənəvi “indisinə” və keçmişinə olan maraq deməkdir. Zaman onu yalnız xalqın tarixi taleyi ilə, xalqın mənəvi və əxlaqi həyat təcrübəsi ilə bağlılığı baxımından düşündürür və narahat edir. Keçmişi də, gələcəyi də şair məhz “Vətən tarixi”nin səhifələri kimi vərəqləyir. Fəlsəfi zaman, məkan və işıq anlayışları varlıqla, dünya ilə ünsiyyətin üfüqlərini böyütməkdə, öz düşüncələrinə vüsət və qanad verməkdə şairə kömək edir. Vəhdətə və tamlığa, ölçüsüzlüyə və nəhayətsizliyə əbədi, doyumsuz bir təşnəlik ruhu Bəxtiyar poeziyasının “narahatlıq” keyfiyyətlərinin əsas məzmununu təşkil eləyir” [3, s.6].

## Nəticə / *Conclusion*

...Bəxtiyar Vahabzadənin qiymətli lirikası, poema və pyeslərində insan konseptinin dərin psixoloji və fəlsəfi qatları ifadə olunmuşdur. Humanist sənətkarın müdrik poeziyasında insan psixologiyasının həm hüdudsuz halları, həm də insan fəlsəfəsinin məna və mahiyyəti dərin və geniş poetik obrazlarla, təsvir və ifadə vasitələri ilə ifadəsini tapmışdır.

## Ədəbiyyat / *References*


1. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. – Bakı: Gənclik, 1967, 411 s.
2. Yaşar Qarayev, Şamil Salmanov. Poeziyanın kamilliyi. – Bakı: Yazıçı, 1985, 193 s.
3. Y.Qarayev. Düşündürən poeziya (ön söz). Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. 2 cilddə, I c. – Bakı: Azərnəşr, 1974, 377 s.
4. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. 12 cilddə, IV cild. – Bakı: Çaşıoğlu, 2002, 608 s.
5. Məmməd Cəfər Cəfərov. Şairin səsi – xalqın səsi. “Ədəbiyyat və incəsənət”, 16 oktyabr 1984.
6. Bəxtiyar Vahabzadə. Əbədi heykəl. – Bakı: Azərnəşr, 1951, 60 s.
7. Bəxtiyar Vahabzadə. Vətən ocağının istisi. – Bakı: Gənclik, 1982, 181 s.
8. Bəxtiyar Vahabzadə. Köklər – budaqlar. – Bakı: Gənclik, 1968, 134 s.
9. Bəxtiyar Vahabzadə. Etiraf. Şəbi-hicran. – Bakı: Uşaqgəncnəşr, 1962, 187 s.
10. Bəxtiyar Vahabzadə. Çinar. – Bakı: Uşaqgəncnəşr, 1956, 62 s.
11. Bəxtiyar Vahabzadə. Sənətkar və zaman. – Bakı: Gənclik, 1976, 298 s.
12. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, 1961, 273 s.
13. Bəxtiyar Vahabzadə. “Azərbaycan”, 1954, №3.
14. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. 2 cilddə, I c. (1944-1965). – Bakı: Yazıçı, 1983, 429 s.
15. Bəxtiyar Vahabzadə. Bir ürəkdə dörd fəsil. – Bakı: Azərnəşr, 1966, 238 s.
16. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. II cild (1966-1981). – Bakı: Yazıçı, 1984, 458 s.
17. Bəxtiyar Vahabzadə. Ceyran. – Bakı, Uşaqgəncnəşr, 1957, 162 s.
18. Bəxtiyar Vahabzadə. İnsan və Zaman. – Bakı: Azərnəşr, 1964, 224 s.
19. Bəxtiyar Vahabzadə. Dan yeri. – Bakı: Gənclik, 1973, 262 s.
20. Bəxtiyar Vahabzadə. Sadəlikdə böyüklük. – Bakı, 1978, 236 s.
21. Nizami Cəfərov. Bəxtiyar Vahabzadə. – Bakı: Azərnəşr, 1996, 80 s.
22. Bəxtiyar Vahabzadə. Payız düşüncələri. – Bakı: Yazıçı, 1981, 365 s.
23. Məsud Əlioğlu. Şair ləyaqəti, şair sevgisi. “Ədəbiyyat və incəsənət”, 26 fevral 1972.
24. Rahid Ulusel. Ayağından daş asılmış həqiqətlər / Azərbaycanın Bəxtiyarı *(Bəxtiyar Vahabzadənin həyatı, yaradıcılığı və ictimai fəaliyyəti haqqında məqalələr toplusu).* – Bakı, 1995.
25. Bəxtiyar Vahabzadə. Özümlə söhbət. – Bakı: Azərnəşr, 1985, 264 s.
26. Bəxtiyar Vahabzadə. Axı dünya fırlanır. – Bakı: Yazıçı, 1987, 208 s.
27. Nəbi Xəzri. Poeziyamız bir ümmandırsa. “Ədəbiyyat və incəsənət”, 23 avqust 1985.
28. Vaqif Yusifli. Yanmaq yaşamaqdır. “Sovet Gürcüstanı” qəzeti, 31 avqust 1985.
29. Bəxtiyar Vahabzadə. Dərin qatlara işıq. – Bakı, 1986, 320 s.

30. Bəxtiyar Vahabzadə. Mənə iztirab ver. "Azərbaycan", 1981, №10, s.47-48.
31. Bəxtiyar Vahabzadə. Ölüm haqqında düşüncələr. "Ulduz", 1986, №10, s.29-31.

## Человеческая концепция в поэзии Бахтияра Вахабзаде

**Ализаде Аскерли**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: alizade.asgerli@gmail.com

**Резюме.** Мудрая и философская поэзия народного поэта Бахтияра Вахабзаде, идеал которого – величие, желание которого – чистота, цель которого – возвышенность, а любовь – красота, в основном построена на четырех понятиях: идеал, желание, цель и красота!

Поэзия Бахтияра Вахабзаде тесно связана с миром сердца и разума человека, его психолого-духовной и философско-нравственной природой. Поэт создал редкие образцы азербайджанской поэзии XX века, опираясь на художественные традиции фольклора, народно-ашугской поэзии, классической и мировой поэзии, и был признан художником-новатором.

Поэзия Бахтияра Вахабзаде – это поэзия эмоционального понимания и логического понимания. Весь объем его поэтического понимания обеспечивался активным творческим воображением, связывающим эмоции, восприятие и воображение, а также понимание, суждение и рациональное умозаключение. Бахтияр Вахабзаде привнес в нашу национальную поэзию интеллектуальный художественный стиль. Его поэзия питается диалектическими законами жизни, общества и мира, единством и борьбой противоположностей, таинственными поэтическими состояниями отрицания отрицанием, количественными и качественными изменениями, а также основными законами логики: тождеством, противоречием, исключением третьего, достаточным, и обрела индивидуальность как поэзия художественных контрастов.

Бахтияр Вахабзаде – наш поэт, который чаще всего выражает свое лирическое «Я» и который чаще всего пишет о боли земли, родины и народа. Тема родного языка и матери занимает важное место в творчестве Бахтияра Вахабзаде. Поэтическое состояние психологизма поэта вывели на передний план наш мир души, сердца и интеллекта. В основе философии Бахтияра Вахабзаде лежала проблема мира и человека, а образ человека занимал важное место в его богатой поэзии. Художественная философия поэзии Бахтияра Вахабзаде родилась из его эмоционально-логического понимания. Художник был субъективным материалистом в своей поэтической философии. Бахтияр Вахабзаде – народный, национальный и гуманитарный художник.

**Ключевые слова:** Бахтияр Вахабзаде, концепция, художественный контраст, художественная философия, психологизм